# Xarici səfərlər üçün yaddaş kitabçası



# Nizamlı, tənzimlənən və təhlükəsiz miqrasiya üçün!



Əziz vətəndaş,

Dünyanı kəşf etmək üçün necə səbirsizləndiyinizi təsəvvür edirik. İstər səyahət və ya təhsil, əmək və ya işgüzar səfər, istərsə də sadəcə tanışlarınızı görmək üçün yola çıxırsınız – sizi rəngarəng ölkələr və maraqlı şəhərlər gözləyir.

Səfərinizin məqsədindən asılı olmayaraq, nəzərə alın ki, hər ölkənin öz qanun və qaydaları var. Bu kiçik kitabçanı ona görə hazırladıq ki, gedəcəyiniz yerlərdə səfərləriniz təhlükəsiz və rahat keçsin.

Əziz vətəndaş, hər bir səfər xoş xatirələr deməkdir. İstərdik ki, bu kitabçada yazılanları diqqətlə nəzərdən keçirəsiniz və faydalı tövsiyələrimizlə səyahətinizin unudulmaz keçməsində bizim də töhfəmiz olsun.

Sizə xoş səyahətlər arzu edirik!



# Səfərə hazırlıq

Səfərinizin təhlükəsiz və planınıza uyğun keçməsi üçün gedəcəyiniz ölkəni öncədən araşdırmaq çox vacibdir. İlk olaraq ölkənin yaşayış səviyyəsini, adət-ənənələrini, mədəni xüsusiyyətlərini öyrənməyə çalışın. İnternetdə araşdırma edərkən qarşınıza çıxan ilk mənbə ilə kifayətlənməyin, bir neçə məlumatı təhlil etməyə çalışın. Gömrük (ölkəyə gətirilməsi qadağan olunan malların və əşyaların siyahısı) və miqrasiya qaydaları (viza, vizasız qalma müddəti, şərtləri və s.) barədə məlumatları səfər edəcəyiniz ölkənin rəsmi İnternet resurslarından dəqiqləşdirin.



Səfərdən əvvəl xərclərinizi hesablayın, ictimai və şəhərlərarası nəqliyyat sistemini, taksi qiymətlərini öyrənin. Gedəcəyiniz ölkənin pul vahidini araşdırın və nəzərdə saxlayın ki, bir çox yerlərdə Azərbaycan manatını yerli valyutaya dəyişməkdə çətinlik yaşaya bilərsiniz. Bankınızdan istifadə edəcəyiniz plastik bank kartlarının səfər edəcəyiniz ölkələrdə çalışmasını dəqiqləşdirin, bankomat vasitəsilə nağdlaşdırmanın xidmət haqqı məbləği ilə tanış olun. Səfər zamanı, imkan daxilində, elektron ödənişlərə üstünlük verə bilərsiniz.

Miqrasiya, gömrük və s. qaydalar müxtəlif ölkələrin vətəndaşları üçün fərqli ola bilər. Odur ki, Azərbaycan vətəndaşlarına uyğun tələbləri öyrənin.



# Pasport nədir?

Ümumvətəndaş pasportu xarici ölkələrdə vətəndaşların şəxsiyyətini təsdiq edən, bütün xarici ölkələrə getmək üçün etibarlı olan sənəddir. Pasport Azərbaycan Respublikasının mülkiyyətidir və onun vətəndaşdan alınması, girov götürülməsi qadağandır.

# İstifadə qaydaları



Pasportu tanımadığınız şəxslərə etibar etməyin



Məlumatlarını əsas olmadan heç kimə bildirməyin



Uşaqlar üçün əlçatmaz yerdə saxlayın



Pasportunuzu korlamayın



Pasportunuzu baqaja verməyin



Səfər zamanı üstünüzdə saxlayın

# Uşaqlar üçün pasport

Böyüklərlə yanaşı xarici ölkələrə səyahət edən uşaqların da (valideynləri ilə və ya tək səfər etmələrindən asılı olmayaraq) ümumvətəndaş pasportu olmalıdır. Pasport 1 yaşadək uşaqlara bir illik, 1-3 yaşlarında üç illik, 3-18 yaşınadək beş illik, 18 yaşı tamam olmuş şəxslərə isə 10 illik müddətə verilir. Uşaqlara verilən pasportun etibarlılıq müddəti qısa olduğu üçün səfər öncəsi bitmə tarixinə və gedəcəyiniz ölkənin qaydalarına uyğunluğuna mütləq diqqət edin.

Unutmayın ki, uşaq valideynlərindən biri ilə səfər etdikdə Azərbaycan Respublikasından çıxmaq üçün digər valideynin notarial qaydada təsdiq edilmiş razılıq sənədi tələb olunur.



# Səfər üçün viza

Hazırda Azərbaycan vətəndaşları bir sıra ölkələrə vizasız səfər edə bilərlər. Digər bütün ölkələr üçün viza alınmalıdır. Viza – gedəcəyiniz ölkəyə daxil olmaq, göstərilmiş müddətdə müvəqqəti qalmaq və tərk etmək hüququ verən sənəddir. Nəzərə alın ki, viza səfərin məqsədinə uyğun rəsmiləşdirilir. Misal üçün, turizm məqsədi ilə verilmiş viza, adətən, həmin ölkə ərazisində işləmək hüququ vermir. Viza qaydaları, tələb olunan sənədlərin siyahısını gedəcəyiniz ölkənin diplomatik nümayəndəlik və konsulluqlarının İnternet resurslarından və ya digər etibarlı mənbələrdən əldə edə bilərsiniz.




Azərbaycan vətəndaşları üçün vizasız ölkələrin siyahısı
**mfa.gov.az/content/918**

Təqdim edəcəyiniz sənədlər səfərinizin məqsədinə uyğun, həqiqi olmalıdır. Sənədlər və məlumatlar nə qədər düzgündürsə, viza almaq şansınız da bir o qədər çox olacaq. Saxta sənədlərlə alınan vizalar ləğv edilir, müraciət edən şəxs isə inzibati və ya cinayət məsuliyyətinə cəlb oluna bilər.

Vizaya şəxsən və ya səlahiyyətli şirkət vasitəsilə müraciət edə bilərsiniz. Özlərini vasitəçi kimi təqdim edən şəxslərin xidmətlərindən istifadə etməyin. Belə şəxslər yalan vədlərlə inamınızdan sui-istifadə edə, sizi riskə ata bilərlər.

Sərhədi keçərkən bütün müvafiq sənədlər üzərinizdə olmalıdır. Xarici ölkələrin sərhəd-nəzarət xidmətinin əməkdaşları sizin səyahət sənədlərinizi yoxlamaq səlahiyyətinə malikdirlər. Səfər zamanı olduğunuz ölkələrin qanun və qaydalarına hörmətlə yanaşın.



# Səyahət sığortası

Səfərdən əvvəl səyahət sığortasını əldə etməyi unutmayın. Sığorta alarkən şərtləri ilə diqqətlə tanış olun, bütün sualların cavabını (məsələn, minimal ödəniş şərtləri, sığorta hadisəsi baş verdikdə, hara və necə müraciət etməlisiniz və s.) sığorta şirkətindən (agentindən) çəkinmədən soruşun və dəqiqləşdirin. Yaddan çıxarmayın ki, səyahət sığortası xəstəliklərin və zədələrin müayinə və müalicəsi üçün nəzərdə tutulan tibbi xərcləri, o cümlədən şəxsi əşyaların, baqajın və maliyyə vəsaitlərinin oğurlanması və itməsi, uçuşların gözlənilmədən təxirə salınması ilə əlaqədar zərəri əhatə edə bilər.

Səfər zamanı səyahət sığortası ilə bağlı sənədləri sizə əlçatan yerdə saxlayın. Sığorta hadisəsi ilə bağlı müvafiq ödəniş qəbzlərini itirməyin.



# Yola çıxarkən




Pasportunuzun etibarlılıq müddətini öncədən yoxlayın. Bitmə müddəti tələbi ölkədən-ölkəyə dəyişir (adətən etibarlılıq müddəti vizanın bitməsindən və ya ölkəyə giriş tarixindən başlayaraq 3-6 aydan az olmamalıdır).



Tanımadığınız şəxslərin bağlamalarını və yüklərini daşımayın.



Sərhədi keçərkən bütün sənədlər (səfər sənədləri, sığorta, otel bronu və s.) üstünüzdə olmalıdır.



Bəzi ölkələrdə sizə lazım olan dərmanların olmadığını və ya həkim göstərişi ilə verildiyini nəzərə alaraq, dərmanlarınızı özünüzlə götürməyiniz tövsiyə olunur.

# Ehtiyat igidin yaraşığıdır

Yaxşı olar ki, səfər öncəsi pasportun, şəxsiyyət vəsiqəsinin, səyahət sığortasının, vizanın ehtiyat surətini (kağız və ya elektron nüsxə) çıxarasınız. Bu sənədlərin surətlərinin olması gözlənilməz vəziyyətlərdə sizə yardımçı ola bilər. Olduğunuz yerdə hər hansı xoşagəlməz hadisə baş verərsə, ilk olaraq həmin ölkənin hüquq-mühafizə orqanlarına müraciət etməyinizi məsləhət görürük. Hər hansı köməyə ehtiyacınız olarsa və ya xarici ölkədə pasportunuz itərsə, yararsız hala düşərsə, etibarlılıq müddəti bitərsə, Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarına müraciət edə bilərsiniz.



Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının siyahısı
**mfa.gov.az/content/22**

Yeri gəlmişkən, səfəriniz və gedəcəyiniz ölkədə qalacağınız yerlər barədə yaxınlarınıza məlumat verməyi unutmayın. Xarici ölkəyə daimi və ya müvəqqəti yaşamağa gedirsinizsə, Azərbaycan Respublikasında sizi təmsil edəcək şəxsə vəkalətnamə (etibarnamə) verə bilərsiniz.

Gedəcəyiniz ölkədə yayğın olan yoluxucu xəstəliklərlə maraqlanın. Bəzi uzaq ölkələrə, xüsusilə Afrika və Asiya ölkələrinə gedərkən peyvənd tələb və ya tövsiyələrini də nəzərdən keçirməyiniz mütləqdir.



# Beynəlxalq miqrasiya dəstəyi

Əgər siz xarici ölkələrdə tənzimlənməyən (qanunsuz) miqrant hesab olunursunuzsa, lakin Azərbaycana birdəfəlik geri dönməyi düşünürsünüz və bunun üçün maliyyə imkanınız yoxdursa, sizin qayıdışınıza yardım göstərilməsi üçün Beynəlxalq Miqrasiya Təşkilatının (International Organization for Migration) həmin ölkədə yerləşən ofisinə müraciət edə bilərsiniz.

Könüllü Qayıdışa Yardım Proqramından faydalanmaq üçün BMqT-nin Cenevrədəki baş ofis ilə əlaqə saxlayaraq olduğunuz ölkə üzrə necə müraciət edə biləcəyinizi dəqiqləşdirin: www.iom.int/contact-us



Könüllü Qayıdışa Yardım Proqramı haqqında ətraflı məlumat

# Yoxlama siyahısı

- [ ] Səfər edəcəyim ölkə barədə məlumat əldə etdim;
- [ ] Gedəcəyim ölkənin valyutası barədə məlumat topladım;
- [ ] Pasportun etibarlılıq tarixini yoxladım;
- [ ] Səfər üçün vizanın lazım olub-olmadığını yoxladım;
- [ ] Səfər üçün müvafiq vizanı əldə etdim;
- [ ] Səyahət sığortasını əldə etdim;
- [ ] Özümə lazım olan dərmanları və həkim təyinatını götürdüm;
- [ ] Hara gedəcəyim barədə yaxınlarıma məlumat verdim;
- [ ] Pasportun və digər vacib sənədlərin surətini özümlə götürdüm;
- [ ] Gedəcəyim ölkədəki Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və ya konsulluqlarının əlaqə məlumatlarını öyrəndim.

Beynəlxalq Miqrasiya Təşkilatı
BMT-nin Miqrasiya Agentliyi

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Bu kitabça Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə əməkdaşlıq çərçivəsində hazırlanıb

Layihə BMqT tərəfindən həyata keçirilir

---

Bu kitabça Birləşmiş Millətlər Təşkilatının Miqrasiya Agentliyi olan Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı Nümayəndəliyinin həyata keçirdiyi "Azərbaycanda Miqrasiya və Sərhəd İdarəçiliyi üzrə Potensialların Gücləndirilməsi" layihəsi çərçivəsində hazırlanıb.

Təklif və suallarınızı iombaku@iom.int ünvanına yaza bilərsiniz.